# Azərbaycan Fransa səfirliyinin iki əməkdaşını ölkədən qovdu

**Nə qədər zaman keçir-keçsin, gec-tez düz yol əyri yolu kəsir. Bunun qarşısını almaq qeyri-mümkündür.**

30 ildən çoxdur ki, işğalçı Ermənistana bütün istiqamətlərdə dəstək olan, Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirən Fransa da əyri yollarla Cənubi Qafqaza ayaq açmaq istəyir. Özü də Ermənistanın ərazisindən istifadə etməklə arzusuna çatmağa çalışır. Amma buna nail ola bilmir...

Fransa Avropanın orta göbəyində oturub Cənubi Qafqaza göz dikir. Əyri yollarla bu yerlərə gəlib çıxmağa çalışır. Ermənistandan da bir dayaq yeri, tutacaq kimi istifadə edərək Cənubi Qafqazda özünün hərbi bazasını yerləşdirməyə, necə deyərlər, yerini bərkitməyə can atır. Məqsədinə çatmaq üçün bütün variantlara əl atır. Amma Fransa unudur ki, Cənubi Qafqaza gedən yolun üstündə dünyada söz sahibi olan Azərbaycan var. Qüdrətli Azərbaycan Fransanın Cənubi Qafqaza gedən əyri yollarını qətiyyətlə kəsib. Öz ölkəsinə rəhbərlik edə bilməyən Makronun siyasətini iflasa uğradıb.

Bu günlərdə Qərb mediasında yayılan informasiya Fransanın iç üzünü bir daha açıb ortalığa qoydu. Aydın oldu ki, Fransanın iç üzü ilə astarının heç bir fərqi yoxdu. Astarı üzündən, üzü də astarından betərdi. Çünki hər iki üzündə eybəcərlik, çirkin niyyət, məkrlik və başqa xoşagəlməz cizgilər var. Öz məqsədini nə qədər gizlin saxlasa da, axır ki, üzə çıxdı. Belə ki, Ukrayna, Moldova, Gürcüstan, Azərbaycan, Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanın bir sıra ölkələrində müxtəlif əməliyyatlara cəlb edilmiş Fransa xüsusi xidmət orqanlarının geniş agentura şəbəkəsi Azərbaycanda ifşa olunub. Hər şey Fransa səfirlikdaxili rezidenturasının Azərbaycan ərazisində əslində Fransanın "tərəfdaşı" kimi bilinən ölkələrin nümayəndələrinə qarşı çox arxayın kəşfiyyat əməllərinə görə diqqəti cəlb etməsi ilə başlayıb. Geniş əlaqələrindən istifadə edən rezidentura region ölkələrində fəal hərəkət edərək təsir dairəsini genişləndirməyə çalışıb.

Məlum olur ki, geniş agentura əlaqələrindən istifadə edən fransız rezidenturası Cənubi Qafqaz məkanında fəal hərəkət etməklə yeni məqsədlərini reallaşdırmaq və ölkəsinin təsir dairəsini genişləndirmək yolunu tutubmuş. Xüsusi mənbələrdən əldə edilmiş informasiyaya əsasən aparılmış araşdırma bir-biri ilə əlaqəli məxfi şəbəkəni aşkarlamağa imkan verən olduqca maraqlı faktları üzə çıxarıb. Uzun illər ərzində Fransanın xaricdəki casus şəbəkəsinin ştatdankənar əməkdaşı olmuş şəxslərdən biri, könüllü olaraq Azərbaycan hüquq-mühafizə orqanları ilə əməkdaşlığa təşəbbüs göstərib. Bundan sonra "ifşa əməliyyatı"na başlanılıb. Müəyyən müddət ərzində bir qismi indi və yaxud əvvəllər Azərbaycanda xidmət etmiş, digər qismi dünyanın müxtəlif ölkələrində və nüfuzlu beynəlxalq təşkilatlarında gizli fəaliyyətini davam etdirən Fransanın onlarla xəfiyyəsi aşkarlanıb. Əməliyyatın gedişində Azərbaycan xüsusi xidmət orqanlarına Fransa rezidenturasının, həmçinin Cənubi Qafqazdakı, Yaxın Şərqdəki, Ukraynadakı və Moldovadakı fəaliyyətinə dair təkzibolunmaz dəlil və sənədlər təqdim olunub.

Agentura şəbəkəsinin aşkarlanması Fransanın çirkin məqsədini və amallarını aydın şəkildə bir daha göstərdi. Bu əməliyyat Fransa xüsusi xidmət orqanlarının son 50 ildəki ən böyük ifşası və biabırçılığıdır. Bütün dünya Fransanın iç üzünü gördü, daim çirkin siyasət yürüdən bu ölkəni yenidən tanıdı. Ataların yaxşı bir sözü var: "Özünə umac ova bilmir, qonşuya əriştə kəsir". Bu gün Fransa bax həmin vəziyyətdədir. Makron başçısı olduğu ölkəni idarə edə bilmədiyi halda agentura şəbəkəsi yaradaraq casusluqla məşğul olur. Casus şəbəkəsinin ifşa edilməsi Fransanın təkcə Cənubi Qafqazda deyil, bütövlükdə dünyadakı siyasətinə mənfi təsir edəcək. Bu ölkəyə heç kim inanmayacaq. Biabır olduğunu görən Fransa Prezidenti Emmanuel Makron Xarici Təhlükəsizlik Baş İdarəsinin rəisi Bernar Emyeni vəzifəsindən azad edib. Daxili Təhlükəsizlik Baş İdarəsinə rəhbərlik etmiş Nikola Lerneri isə Xarici Kəşfiyyat strukturuna yeni rəhbər təyin olunub. Guya bu dəyişiklikdən sonra nə olacaq ki?.. Onsuz da dünya Fransaya bələddir. Onun hansı əyri yollarla getdiyini və necə getdiyini görür. Azərbaycan Fransanın bütün məkrli yollarını kəsib dünyaya onun çirkin niyyət və məqsədlərini açıb göstərdi.

Fransa casus şəbəkəsinin ifşası Azərbaycan təhlükəsizlik orqanlarının ayıq-sayıqlığı nəticəsində mümkün olmuşdur. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş təhlükəsizlik orqanlarının peşəkar fəaliyyətindən və əldə etdiyi uğurlardan danışarkən qürur hissləri keçiririk. Onu da qeyd edək ki, İkinci Qarabağ müharibəsindəki Zəfərin qazanılmasında əlahiddə xidmətlərə malik olan bu qurum cəmiyyətimizin təhlükəsizliyinin təminatı, daxildən, eləcə də xaricdən ölkəmizə qarşı yönələn təhdidlərin neytrallaşdırılması ilə bağlı ardıcıl və məqsədyönlü iş aparıb. İndi də eyni missiyasını davam etdirməkdədir. Fransanın Azərbaycandakı səfirliyinin rezidentura şəbəkəsinin ifşası da onun peşəkarlığının göstəricisidir.

Fransa Cənubi Qafqazda bu sahədə apardığı pozuculuq fəaliyyətinin cavabını, son zərbəni məhz Azərbaycandan aldı. Makron iqtidarı Bakıda ölkəmizə və digər dövlətlərə qarşı toxuduğu tora özü düşdü. Halbuki Fransa bu tora başqalarını salmaq istəyirdi. Casus şəbəkəsinin ifşa olunması, qarşılaşdığı bu biabırçılıq Fransaya qarşı başqa ölkələrin də etimadını heçə endirdi.

Fransanın atdığı çirkin addımlar iki ölkə arasında olan münasibətləri daha da gərginləşdirdi. Dekabrın 26-da Fransanın Azərbaycandakı səfiri Ann Buayon bu məsələ ilə bağlı Xarici İşlər Nazirliyinə çağırılıb. Fransa səfirliyinin iki əməkdaşının diplomatik statuslarına uyğun olmayan və "Diplomatik əlaqələr haqqında" 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan olunduğu Fransa səfirinin diqqətinə çatdırılıb. Həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb edilib və XİN-in müvafiq notası Fransa səfirinə təqdim edilib.

Casus şəbəkəsinin ifşa olunması bir daha sübut edir ki, Fransa hakimiyyəti beynəlxalq qanunvericiliyin tələblərinə məhəl qoymayaraq başqa dövlətlərin daxili işlərinə qarışır, süni surətdə münaqişələr yaradır, qırğınlar törədir. Müxtəlif adlar altında əməliyyatlar keçirərək çirkin niyyət və məqsədlərinə çatmağa çalışır. Artıq Afrikadan Qafqaza kimi bütün fəaliyyət istiqamətləri üzrə Makron rejimi iflasa uğrayıb. Başqa ölkələrdə də uçuruma doğru gedir. Emmanuel Makronun yürütdüyü yanlış siyasət Fransanın dünyada mövqelərinə dağıdıcı zərbələr vurmaqda davam edir. Başqa ölkələrə qarşı çirkin siyasət yürüdən, münaqişələr yaradan, müharibələr törədən, qanlar tökən, xalqları əsarətdə saxlayan Fransa Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü ola bilməz.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 27 dekabr (№ 284).- S.18.